**Hörmətli tədbir iştirakçıları, əziz qonaqlar!**

Sizi Azərbaycan xalqının taleyində müstəsna əhəmiyyətə malik olan 15 İyun – Milli Qurtuluş Gününə həsr edilmiş tədbirdə salamlayırıq.

Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan 1990-cı illərin əvvəllərində ciddi siyasi, iqtisadi və sosial böhranla üz-üzə qalmışdı. Dövlətçiliyimizin taleyinin təhlükə altında olduğu mürəkkəb bir dövrdə xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin xilası, sabitliyin bərpası və gələcək inkişafının əsasını qoydu.

1993-cü il iyunun 15-i Azərbaycan tarixində dönüş nöqtəsi oldu. Həmin gün dövlət müstəqilliyimizin qorunub saxlanılması, milli həmrəyliyin təmin edilməsi və hüquqi-demokratik dövlət quruculuğunun başlanğıcı kimi tarixə yazıldı. Məhz buna görə də bu gün xalqımız tərəfindən böyük ehtiramla Milli Qurtuluş Günü kimi qeyd edilir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını uğurla davam etdirir, beynəlxalq nüfuzunu daha da möhkəmləndirir və yeni nailiyyətlərə imza atır.

Milli Qurtuluş Günü münasibətilə hər birinizi təbrik edir, xalqımıza əmin-amanlıq, dövlətimizə davamlı inkişaf və yeni uğurlar arzulayırıq.

Bayramınız mübarək!